# Necə gözəl, yaşamalı dünyadı...

Bu, yarım əsrdən artıq yaşanmış ömür sahibinin keçib gəldiyi yollara xəyali qayıdışı ilə dilə gələn etirafı, düşüncəsi, qənaətidir.

Rafiq Yusifoğlunu oxucuya xüsusi təqdim etməyə ehtiyac yoxdur; çünki onun yaradıcılıq məziyyətləri barədə çox deyilib, çox yazılıb. Onun yüksək insani keyfiyyətlərini, xarakterik xüsusiyyətlərini açıb göstərmək, onu layiqli bir insan, istedadlı şair, gözəl alim kimi xarakterizə etmək üçün, güman edirik, portretindəki bəzi ştrixləri hökmən vurğulamaq lazımdır.




Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri namizədi Rafiq Yusifoğlu 1970-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini, sonra isə aspiranturanı bitirmişdir. "Azərbaycan poemasının inkişaf problemləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, "XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" adlı doktorluq dissertasiyasını tamamlamışdır. Bir müddət Azərbaycan Dövlət Televiziyasının "Xəbərlər" baş redaksiyasında elm, mədəniyyət, incəsənət şöbəsinin müdiri işləmişdir. 1997-ci ildən "Göyərçin" jurnalının baş redaktorudur.

1989-cu ildə "Ətirli düymələr" kitabına görə Azərbaycan Yazıçılar İttifaqının, Mətbuat Komitəsi və Gənclər İttifaqının mükafatına layiq görülmüşdür. "Vətən" ali ədəbi mükafatın laureatıdır.

"Yurdum-yuvam", "Ətirli düymələr", "Ocaq yeri", "Aylı cığır", "Qəm karvanı", "Həsrət köçü", "Şirin yağış" (rus dilində) adlı şeir, "Bahar qatarı" adlı nəsr, "Dədə Qorqud" komikslər kitabının, XX əsr Azərbaycan poemasının yaradıcılıq xüsusiyyətlərindən bəhs edən "Azərbaycan poeması: axtarışlar, perspektivlər" monoqrafiyasının müəllifidir.

"Müasir ədəbi proses və ədəbi tənqid" adlı kitabı müəllifin "Ədəbiyyatşünaslığın əsasları" və "Uşaq ədəbiyyatı" dərsliklərindən sonra bu silsilədən olan üçüncü kitabıdır. Ali məktəblərin filologiya fakültələrinin tələbələri üçün nəzərdə tutulmuş bu kitabda ədəbi prosesin mahiyyəti, onun qanunauyğunluqları öz əksini tapmışdır.

Ədəbi prosesi izləmək, ona düzgün qiymət vermək asan iş deyildir. Bunun üçün elmi səviyyə kifayət etmir. Tənqidçi həm müasir həyatı, dövrün tələblərini, yaradıcılıq prosesinin qanunauyğunluqlarını bilməli, poetik duyuma malik olmalıdır. Bütün bu xüsusiyyətlər nəzərə alınmaqla uzun axtarışlardan sonra araya-ərsəyə gələn "Müasir ədəbi proses və ədəbi tənqid" dərsliyi bu sahədə atılan ilk addımdır.

Yaşamağı, bu dünyaya gəlişin özünü xoşbəxtlik sayan şair: "Xoşbəxtəm ki, mənim də köksümdə sevdalı bir ürək çırpınır. Təbiətin əsrarəngiz gözəlliklərindən zövq almağı bacarıram" —deyir.

Onun şeirlərində, poemalarında dərin fikir, fəlsəfi tutum, Azərbaycan dilinə böyük məhəbbət, sevgi duyulur. Vətənə, anaya, ailəyə, insanlara olan sonsuz məhəbbət şeirlərin mayasına, ruhuna hopub.

Rafiq Yusifoğlu kiçik yaşlı oxucuların ürəyinə yol tapan istedadlı qələm sahibidir. Hər dəfə "Göyərçin"in kitabxanası seriyasından buraxılmış kitablar uşaqlara əsil hədiyyə olur.

Şairin "Söz çəməni", "Günlərimiz, aylarımız" kitabları dediklərimizə nümunə ola bilər. Burada əsasən ilin əlamətdar günlərinə, milli bayramlara həsr olunmuş şeirlər toplanıb. 15 Sentyabr — "Bilik günü", "18 Oktyabr—Azərbaycanın Dövlət Müstəqilliyi günü", "12 Noyabr—Konstitusiya günü", "28 May—Azərbaycan Demokratik Respublikasının yaranması günü" və s. şeirlər balaca oxucuların diqqətini milli fəxarət mənbəyi—tarixi hadisələrə, rəmzi, dövlət atributlarına cəlb edir, onlara vətənpərvərlik və vətəndaşlıq duyğuları aşılayır. Habelə "Əlifba bayramı", "Durğu işarələri" sırasından şeirlər məktəblilərin intellektual səviyyəsini artırmağa xidmət edir.

Rafiq Yusifoğlu həm də müəllimdir, Sumqayıt Dövlət Universitetinin dosentidir. O, bir pedaqoq kimi tələbələrinin yaxın məsləhətçisi və sirdaşıdır.

Vaxtilə SSRİ Yazıçılar İttifaqı Uşaq və Gənclər ədəbiyyatı şöbəsinin sədri Sergey Mixalkovun Rafiq Yusifoğluna ünvanladığı məktubda deyilir: "Siz öz yaradıcılığınızı uşaq və gənclərə həsr etmisiniz, bunun üçün qarşınızda baş əyirəm!"

Bəli, özünü tanıyandan kağızla, qələmlə ünsiyyət yaradan Rafiq Yusifoğlu öz qələmi ilə xalqına xidmət etməkdədir: "Çox fəxr edirəm ki, həmişə başıaşağı olan qələmim məni millətin, xalqın, dost-tanışın, məhəbbət təşnəsi olan gənclərin, hər şeyi öyrənməyə çalışan uşaqların yanında heç zaman başıaşağı eləməyib".

Rafiq müəllim, bu, xoşbəxtlik deyilmi?!

**Nərgiz RÜSTƏMLİ,**
**"Respublika".**

---

**Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 15 avqust 2005-ci il tarixli 340/ü saylı əmri ilə 15 avqust 2005-ci il tarixdən İxtisaslaşdırılmış Yeni Texnika və Texnologiyaların Tətbiqi Mərkəzi ("Ekotexmərkəz") ləğv edilmiş və ləğvetmə komissiyası yaradılmışdır. Ləğv edilmiş mərkəzin kreditor borcları ilə əlaqədar iddialar 2 ay müddətində ləğvetmə komissiyasına təqdim edilməlidir. Göstərilən müddətdən sonra iddialara baxılmayacaqdır.**

---

**Ələt-Astara avtomobil yolunun yenidən qurulması və yeni tikintisi ilə əlaqədar ətraf mühitə təsirin qiymətləndirilməsi məqsədilə müzakirələrin keçirilməsi ilə bağlı**

**ELAN**

Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin "Yolnəqliyyatservis" Departamenti İran İslam Respublikasının "Passillo" Məsləhətçi-Mühəndislər Şirkəti tərəfindən həyata keçirilən **"Bakı-Astara avtomobil yolunun Ələt-Astara (243 km) hissəsində yeni dördzolaqlı avtomobil yolunun və Astara çayı üzərində yeni avtomobil körpüsünün Texniki İqtisadi Əsaslandırılma (TİƏ) və Layihələndirilməsi"** Layihəsi üzrə **"Ətraf mühitə təsirin qiymətləndirilməsi"** ilə bağlı məsələləri müzakirə etmək məqsədilə müvafiq görüşlər keçirəcəkdir. Görüşə yerli və rayon səviyyəsində olan icra hakimiyyətinin, bələdiyyənin, ictimai, infrastruktur və digər təşkilatların nümayəndələri dəvət olunurlar.

Görüşlər Salyan şəhərində cari il avqust ayının 25-də saat 12.00-da, Lənkəran şəhərində isə avqust ayının 26-da saat 12.00-da keçiriləcəkdir. Görüşlər icra hakimiyyətlərinin binasında keçiriləcəkdir.

Salyan şəhərində keçiriləcək görüşə Salyan, Neftçala və Biləsuvar rayonlarının və Ələt qəsəbəsinin, Lənkəran şəhərində keçiriləcək görüşə isə Cəlilabad, Masallı, Lənkəran və Astara rayonlarının, Göytəpə və Liman qəsəbələrinin müvafiq qurumlarının nümayəndələri dəvət olunurlar.

**"Yolnəqliyyatservis" Departamenti.**

---

### ✓ XOKKEY ÜZRƏ AÇIQ BAKI ÇEMPİONATININ NÖVBƏTİ TURUNUN OYUNLARI KEÇİRİLMİŞDİR

Respublika gənclərinin IV Forumuna həsr olunmuş kişi xokkeyçilərin açıq Bakı çempionatı davam edir.

Azərbaycan Otüstü Xokkey Federasiyasının və Bakı Şəhər Gənclər, İdman və Turizm Baş İdarəsinin təşkilatçılığı ilə Respublika Otüstü Xokkey Kompleksində keçirilən yarışların dördüncü turunun oyunları olmuşdur. Nəticələr belədir: İranın milli yığması—"Təhsil" RİM-10:0, "Təbriz"—Nizami rayon İOEUGİM-0:4 , "Urmiya"-"Gənclik"-2:2.

Xatırladaq ki, 4 turdan sonra Nizami rayon İOEUGİM -nin yetirmələri 12 xalla yarış cədvəlinə başçılıq edirlər. İran milli yığma komandası 9 xalla ikinci, "Təbriz" 7 xalla üçüncü, "Gənclik" 5 xalla dördüncü, "Urmiya" 1 xalla beşinci yeri tutur. "Təhsil" RİM isə keçirdiyi bütün görüşləri məğlubiyyətlə başa vurduğundan sonuncu yerin sahibidir.

Avqustun 17-də çempionatın axırıncı turunun oyunları keçiriləcəkdir. İran milli yığması—"Təbriz"lə, "Urmiya"—"Təhsil" RİM-lə, Nizami rayon İOEUGİM isə "Gənclik"lə görüşəcəklər.

### ✓ AZƏRBAYCAN GÜLƏŞÇİSİ BEYNƏLXALQ TURNİRİN GÜMÜŞ MEDALINI QAZANMIŞDIR

Polşanın Syedliç şəhərində məşhur pəhləvan Votslav Ziolkovskinin xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə beynəlxalq turnir başa çatmışdır.

20-yə yaxın ölkədən 100-dən çox idmançının çıxış etdiyi yarışda ölkəmizi baş məşqçi Yaqub Məmmədovun rəhbərliyi ilə 6 nəfərdən ibarət milli yığma komanda təmsil etmişdir. Gərgin mübarizə şəraitində keçən turnirdə yalnız Abil İbrahimov (60 kq) gümüş medal qazana bilmişdir.

### ✓ BADMİNTONÇULARIMIZ XARKOVUN 350 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ TURNİRDƏ İŞTİRAK EDƏCƏKLƏR

Avqustun 17-21-də Ukraynanın Xarkov şəhərində badminton üzrə beynəlxalq turnir keçiriləcəkdir.

Xarkov şəhərinin 350 illik yubileyinə həsr olunmuş turnirdə respublikamızı baş məşqçi Ceyhun Məmmədəliyevin rəhbərliyi ilə, Kənan Rzayev, Kərim Musayev, Orxan Kələntərov və Vüqar Abdullayevdən ibarət heyət təmsil edəcəkdir.

### ✓ ALMANİYA-AZƏRBAYCAN GÖRÜŞÜNÜ NORVEÇLİ HAKİMLƏR BRİQADASI İDARƏ EDƏCƏKDİR

Ölkəmizin futbol üzrə 21 yaşlılardan ibarət yığma komandası sentyabrın 2-də Almaniyanın Triyer şəhərində Avropa çempionatının qrup seçmə oyunları çərçivəsində bu ölkənin gənclərdən ibarət millisi ilə qarşılaşacaqdır. Norveçli hakimlər briqadasının idarə edəcəyi oyunun baş hakimi Sveyn Oddavar olacaqdır. Ona bu görüşdə Ole Hermann və Jan Petter kömək edəcəklər.

### ✓ GƏNC ŞAHMATÇILARIMIZ AVİLES TURNİRİNDƏ PARLAQ QƏLƏBƏ QAZANMIŞLAR

İspaniyanın Aviles şəhərində 20 yaşadək olan yeniyetmə və gənclər arasında keçirilən X ənənəvi beynəlxalq şahmat turniri başa çatmışdır. Yarışın baş hakimi, Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov bildirmişdir ki, 9 ölkədən 120-dək şahmatçının mübarizə apardığı bu turnirdə ölkəmizi əsasən Respublika Şahmat Olimpiadasının qalibləri, Nəsimi və Şəmkir rayon şahmat məktəblərinin yetirmələri təmsil etmişlər. Yığma komandamızın 9 üzvündən 7-si mükafata layiq yer tutmuşdur. Belə ki, 12 yaşlıların turnirində 32 nəfər həmyaşıdını geridə qoyan 11 yaşlı Zaur Məmmədov birinci yerə çıxmışdır. Bu yaş qrupunda Araz Hacıyev isə bürünc medala sahib olmuşdur. 14 yaşlı şahmatçıların mübarizəsində isə Elşad Abdullayev 59 iştirakçı arasında ikinci yeri tutmaqla yanaşı, əmsalı olmayan idmançılar sırasında da üçüncü yerə çıxmışdır. Həmin yaş qrupunda Elgün Quluzadə üçüncü olmuşdur.

Əmsalı olmayan 70 şahmatçı arasında Rahib Məmmədov 9 oyundan 6,5 xalq toplamaqla birinci yerə çıxmışdır. İkinci yerin sahibi isə 6 xalla Təbriz İdrisov olmuşdur. Eləcə də, əmsalı 2 minə qədər olan şahmatçıların turnirində Erkin Qurbanzadə ikinci mükafata nail olmuşdur.

Xatırladaq ki, yarışda zəngin şahmat ənənəsi olan Rusiya, Macarıstan, Polşa və Belarusdan bir beynəlxalq qrossmeyster, 7 beynəlxalq usta və 2 FİDE ustası da çıxış etmişdir.

**AzərTAc**

## ABŞ-da SÜNİ ƏT İSTEHSALI TEXNOLOGİYASI YARADILMIŞDIR

ABŞ alimləri süni ət istehsalı üçün yeni texnologiya təklif edirlər. Süni ət inkişaf edən əzələ hüceyrəsindən hazırlanır. Belə ətin keyfiyyəti təbii ətdən üstündür. Çünki malqara, toyuq və ya donuzlar heç də lazımi şəraitdə saxlanılmır.

Alimlər bildirirlər ki, yeni texnologiya üzrə istehsal edilən ət daha sağlam və faydalı, habelə zülalla zəngin olacaqdır. Ət istehsalçılarından və ət yeməyənlərdən (vegetarianlardan) savayı, adamların üçüncü kateqoriyası da var ki, onlara da süni ətin əsil ətdən faydalı olduğunu sübut etmək lazım gələcəkdir. Bir çoxları hesab edir ki, süni ət kimyəvi maddələrlə doludur.

Yeni texnologiyanın tərəfdarları xatırladırlar ki, süni ətdən geniş istifadə olunması kəsilən heyvanların sayını da, ev heyvanlarının saxlanması üçün ekoloji xərcləri də azaldacaqdır.

**AzərTAc**

---

Ədilov Rüstəm Ədil oğluna Ədliyyə Nazirliyinin Baş idarəsi tərəfindən verilmiş "Qarabağ müharibəsi veteranı" vəsiqəsi itdiyi üçün etibarsız hesab edilir.

Abşeron rayonu, Mehdiabad qəsəbə sakini Hüseynov Rabil Əhməd oğlunun adına verilmiş JN 1672 saylı torpağa mülkiyyətə dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

"Maral" KM-ə məxsus dairəvi möhür itdiyi üçün etibarsız sayılır.

Binəqədi rayonu, Bənəqədi qəsəbəsi, Ramazanov küçəsi ev 23-də yaşayan Həmzəyev Kamran İslam oğluna verilmiş qeydiyyat vəsiqəsi (kupça) və evin texniki pasportu itdiyi üçün etibarsız sayılır.

---

## ALLAH RƏHMƏT ELƏSİN

"Respublika" qəzetinin kollektivi Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Lütvəli Babayevə, qardaşı

**HACI BABAŞIN**

vaxtsız və faciəli vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

MKTD Əhaliyə Vətəndaşlıq Xidməti trestinin müdiri Kərbəlayı Cavanşir, baş mühəndis Feyruz Əsgərov, müdir müavini Əli Nəsirov "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin sədri Yaşar Həsənova, atası

**MƏMMƏDƏLİ HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yazıçı-publisist Xalidə Xalid Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Zeynal Nağdəliyevə, qardaşı

**SADİQİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərikimya" Dövlət Şirkətinin prezidenti, Milli Məclisin üzvü Fikrət Sadıqov Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Zeynal Nağdəliyevə, qardaşı

**SADİQİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Zeynal Nağdəliyevə, qardaşı

**SADİQİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DSMF Lənkəran rayon şöbəsinin kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Zeynal Nağdəliyevə, qardaşı

**SADİQİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran Rayon Mədəniyyət Şöbəsinin kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Zeynal Nağdəliyevə, qardaşı

**SADİQİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallıdan Əbülfəz Nuriyev Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Zeynal Nağdəliyevə, qardaşı

**SADİQİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran rayonunun Vilvan kənd bələdiyyəsinin kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Zeynal Nağdəliyevə, qardaşı

**SADİQİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Bakı şifer və karemika" ASC Direktorlar Şurasının sədri Telman Səfərov və səhmdar cəmiyyətin kollektivi Muarif Əzizova, oğlu

**SAMİRİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, şəhər prokuroru Adil Vəliyev, şəhər Daxili İşlər İdarəsinin rəisi Qərib Həsənov və MTH Gəncə şəhər şöbəsinin rəisi Eldar Məmmədov Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Zeynal Nağdəliyevə, qardaşı

**SADİQİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Fəxrəddin Məlikov Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Zeynal Nağdəliyevə, qardaşı

**SADİQİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

## Astara Rayon İcra Hakimiyyəti

### Astara şəhərində yolların əsaslı təmiri və abadlıq işlərinin görülməsi ilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

**Tender 2 lot üzrə aparılır.**

**Yolların əsaslı təmiri, abadlıq işlərinin görülməsi.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdır.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu H.Əliyev küçəsi 13 ünvanda yerləşən Astara İH-dən (əlaqələndirici şəxs Z.Həsənov. tel.: 3-11-51) ala bilərlər.

**Lot-1 300000**
**Lot-2 200000**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

**Təşkilat: Astara rayon Yerli Xəzinədarlıq Orqanı**
**Hesab: 82432050000**
**VÖEN: 3700004621**
**Bank: Kapital bank**
**Kodu: 200769**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: 7628010000**
**S.W.I.F.T.: BIK AI IBAZ 2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

- ✓ *tenderdə iştirak etmək üçün ərizə;*
- ✓ *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- ✓ *tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- ✓ *tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- ✓ *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanı tərəfindən arayış;*
- ✓ *son bir il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
- ✓ *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- ✓ *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmaqla (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 5 sentyabr 2005-ci il saat 17.00-dək təqdim etməlidirlər.

Bank zəmanəti və tender təklifi isə 13 sentyabr 2005-ci il tarixədək təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 14 sentyabr 2005-ci il saat 10.00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

### Mədəniyyət xəbərləri

## Tamaşanın məşqləri başladı

Azərbaycan Dövlət Gənclər Teatrında "Kərbəlada doğan Günəş" əsəri əsasında əməkdar incəsənət xadimi Hüseynağa Atakişiyevin quruluşunda eyniadlı tamaşanın məşqlərinə başlanmışdır.

Kərbəla müsibətindən bəhs edən yeni səhnə əsərində əsas rolları əməkdar artistlər Muxtar İbadov, Ayşad Məmmədov, aktyorlardan Elşən Qaraxanlı, Qurban İsmayılov, Sərvər Əliyev ifa edirlər.

Tamaşanın rəssamı Dövlət mükafatı laureatı Nazim Bəykişiyev, bəstəkarı Sərdar Fərəcovdur.

## "Hökmdar və qızı"

Akademik Milli Dram Teatrı yeni mövsümü "Hökmdar və qızı" səhnə əsəri ilə açacaq. Teatrdan verilən məlumata görə, 1996-cı ildən etibarən teatr hər yeni mövsümə "Hökmdar və qızı" tamaşası ilə start verir. İlyas Əfəndiyevin sonuncu dram əsəri əsasında səhnələşdirilən tamaşanın quruluşçu rejissoru Mərahim Fərzəlibəyov, rəssamı İsmayıl Məmmədovdur. Səhnə əsərində baş rolları Əliabbas Qədirov, Bəsti Cəfərova, Sabir Məmmədov, Ramiz Novruz və digər aktyorlar ifa edirlər.

Tamaşada Vasif Adıgözəlov və Polad Bülbüloğlunun bəstələrindən istifadə edilir.

---




**Bakıda və Abşeron yarımadasında** əsasən yağmursuz keçəcək, şərq, cənub-şərq küləyi əsəcək, gecə 22-26, gündüz 35-38, Bakıda gecə 23-25, gündüz 36-38 dərəcə isti olacaq, atmosfer təzyiqi 760 millimetr civə sütunu, nisbi rütubət 75-85 faiz təşkil edəcək.

**Naxçıvan Muxtar Respublikasında** əsasən yağmursuz keçəcək, şərq küləyi əsəcək, gecə 18-23, gündüz 35-39 dərəcə isti olacaq.

**Yuxarı Qarabağ, İstisu-Laçın, Daşkəsən-Gədəbəy zonalarında** əsasən yağmursuz keçəcək, lakin gecə və axşam saatlarında bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var, şərq küləyi əsəcək, gecə 15-20, gündüz 23-28 dərəcə isti olacaq.

**Qazax-Gəncə, Ağdam-Füzuli zonalarında** əsasən yağmursuz keçəcək, şərq küləyi əsəcək, gecə 20-25, gündüz 33-38 dərəcə isti olacaq.

**Balakən-Şəki-Qəbələ, Şamaxı-İsmayıllı, Quba-Qusar-Xaçmaz zonalarında** əsasən yağmursuz keçəcək, lakin gecə və axşam saatlarında dağlıq ərazilərdə şimşək çaxacağı, lokal qısamüddətli yağış yağacağı gözlənilir, şərq küləyi əsəcək, gecə 18-23, gündüz 28-33 dərəcə isti olacaq.

**Mərkəzi Aran rayonlarında** əsasən yağmursuz keçəcək, şərq küləyi əsəcək, gecə 22-27, gündüz 35-39 dərəcə isti olacaq.

**Masallı-Lənkəran-Astara zonalarında** əsasən yağmursuz keçəcək, şərq küləyi əsəcək, gecə 21-26, gündüz 32-37, dağlarda gecə 15-20, gündüz 27-32 dərəcə isti olacaq.

---

**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

• **Redaksiyanın telefonları:**

İqtisadiyyat və islahatlar redaksiyası: 439-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 441-20-24;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 439-26-18;
Humanitar siyasət redaksiyası: 438-25-70;
Xəbərlər redaksiyası: 438-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 439-95-51; 438-43-41 tel/faks;
Qəbul otağı: 438-25-70;
Katiblik: 438-25-70;
Reklam və elan xidməti: 441-20-23.



• **Redaksiyanın ünvanı:**

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica.news.az

*"Respublika" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 7460
Sifariş 4080

Qəzetin abunə qiyməti **700** manat, satış qiyməti **950** manatdır.

**Məsul növbətçi**
**Tofiq ƏBDÜLHƏSƏNLİ**

• **Çapa imzalanmışdır**
**16.08.2005**